AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 39 (1384), 25 - 27 sentyabr 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*



## Bakıda cüdo üzrə dünya çempionatının təntənəli açılış mərasimi keçirilib

### *Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib*

Bakıda, Milli Gimnastika Arenasında cüdo üzrə dünya çempionatının təntənəli açılış mərasimi keçirilib.

Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri, Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer, dövlət və hökumət rəsmiləri iştirak ediblər.

Əvvəlcə, Azərbaycanın tarixi abidələri, idmanın, o cümlədən cüdonun inkişafı, ölkəmizdə keçirilən beynəlxalq idman yarışları ilə bağlı videoçarx nümayiş olundu.

Azərbaycan Cüdo Federasiyasının prezidenti Rövnəq Abdullayev və Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer mərasimdə çıxış etdilər.

Azərbaycan Cüdo Federasiyasının prezidenti Rövnəq ABDULLAYEV çıxışında dedi:

- Hörmətli qonaqlar, əziz dostlar, Azərbaycan Cüdo Federasiyasının adından hər birinizi ölkəmizin paytaxtı Bakı şəhərində keçirilən 2018-ci il cüdo üzrə dünya çempionatının açılışı münasibətilə salamlayır, yarış iştirakçılarına uğurlar arzulayıram.

Füsunkar təbiətə və qədim tarixə malik Azərbaycan torpağına xoş gəlmisiniz.

*(ardı 2-ci səhifədə)*



## Azərbaycan cüdoçusu Hidayət Heydərov dünya çempionatında bürünc medal qazanıb

### *Prezident İlham Əliyev Milli Gimnastika arenasında yarışlara baxıb*

Bakıda cüdo üzrə dünya çempionatı davam edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri sentyabrın 22-də Milli Gimnastika arenasında keçirilən yarışları izləyiblər.

Çempionatın üçüncü günündə də yarışlar gərgin idman mübarizəsi şəraitində keçib. Cüdoçularımızdan yalnız 73 kiloqram çəki dərəcəsində Hidayət Heydərov yarımfinala qədər addımlaya bilib. İraqlı Sajjad Sehenlə qarşılaşan və onu ipponla məğlub edərək 1/16 finala vəsiqə qazanan idmançımız bu mərhələdə Monako təmsilçisi Sedrik Bessinə yenə də ipponla qalib gəlib. Növbəti mərhələdə tacikistanlı Bəhruzi Xocazodayu məğlub edən cüdoçumuz çempionatın 1/4 finalına vəsiqə qazanıb. Bu mərhələdə də rəqibindən üstün olan Hidayət Heydərov Monqolustan idmançısı Odbayar Qanbaatarı məğlub edib. Bununla da Bakıda keçirilən cüdo üzrə dünya çempionatında yarımfinala vəsiqə qazanan ilk Azərbaycan idmançısı Hidayət Heydərov olub. O, bu mərhələdə Yaponiya idmançısı Haşimito Soiçi ilə qarşılaşıb. Gərgin mübarizə şəraitində keçən görüşdə 21 yaşlı idmançımız Hidayət Heydərov məğlub olsa da, üçüncü yer uğrunda mübarizədə monqolustanlı rəqibi Tsoqtbaatar Tsend-Oçirə qalib gəlib. Beləliklə, Avropa çempionu və IV İslam Həmrəyliyi Oyunlarının qalibi olan Hidayət Heydərov dünya çempionatını üçüncü pillədə başa vurub.

Qeyd edək ki, 125 ölkənin iştirak etdiyi cüdo üzrə dünya çempionatında 460 kişi və 298 qadın idmançı mübarizə aparır.

## Prezident İlham Əliyev Beynəlxalq Cüdo Federasiyasının prezidenti ilə görüşüb



Sentyabrın 21-də Bakıda keçirilən cüdo üzrə dünya çempionatının təntənəli açılış mərasimi çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer ilə görüşüblər.

Görüşdə cüdo üzrə dünya çempionatının Bakıda yüksək səviyyədə keçirildiyi qeyd olundu. Azərbaycanın mötəbər idman tədbirlərinin mütəmadi olaraq keçirildiyi bir məkana çevrildiyi bildirildi.

Söhbət zamanı Azərbaycanın beynəlxalq idman əməkdaşlığına töhfə verdiyi, ölkəmizdə idmana dövlət səviyyəsində qayğı göstərildiyi bildirildi, Azərbaycan idmançılarının böyük uğurlar əldə etdikləri qeyd olundu.

Beynəlxalq Cüdo Federasiyası ilə uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilən görüşdə Azərbaycanın bu qurumun fəal üzvlərindən biri olduğu vurğulandı, gələcəkdə əməkdaşlığın daha da genişləndiriləcəyinə əminlik ifadə edildi.

Sonra Mehriban Əliyevaya idman aləmində və "Ədalətli oyunlar"ın təbliğində nümunəvi nailiyyətlərinə görə Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin "Xüsusi xidmətlərə görə" medalı təqdim olundu.

## *Azərbaycan Cüdo Federasiyasının Sumqayıt Təlim-Məşq Bazasının açılışı olub*

Sentyabrın 24-də Azərbaycan Cüdo Federasiyasının (ACF) Sumqayıt Təlim-Məşq Bazasının açılış mərasimi keçirilib. Tədbirdə Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer, ACF-nin prezidenti Rövnəq Abdullayev, gənclər və idman naziri Azad Rəhimov, Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, "Azərikimya" İB-nin sədri İmran Arzumanzadə, idman ictimaiyyətinin nümayəndələri və digər şəxslər iştirak ediblər.

Qonaqlar tibb otağı, trenajor zalı, soyunub-geyinmə otaqları ilə tanışlıqdan sonra məşq zalına daxil olublar. Burada yeniyetmə cüdoçular məşq elementləri nümayiş etdiriblər.

Veteran cüdoçu, paralimpiya üzrə Azərbaycan millisinin sabiq baş məşqçisi Əhməddin Rəcəbli qonaqları salamlayaraq, Marius Vizerlə şəxsi tanışlığının 1988-ci ilə təsadüf etdiyini xatırladıb. O, müasir tələblərə cavab verən bazanın istifadəyə verilməsinə görə ACF, "Azərikimya" və Sumqayıt şəhər İcra Hakimiyyətinin rəhbərliyinə minnətdarlığını bildirib.

*(ardı 2-ci səhifədə)*

## Beynəlxalq Ağır Atletika Federasiyasının prezidenti Bakıda səfərdə olub



"Azərbaycanda idman sürətlə inkişaf edir. Ölkədə idmanın ağırlıqqaldırma növü ilə bağlı məsələləri Azərbaycan Ağır Atletika Federasiyasının (AAAF) prezidenti Cahangir Əsgərovla müzakirə etdim. Beynəlxalq Ağır Atletika Federasiyası Azərbaycanla otuz ilə yaxındır sıx əməkdaşlıq edir. AAAF rəhbərliyinə ağırlıqqaldırma idman növü ilə bağlı məsələlərdə fəallıq göstərdiklərinə görə təşəkkür edirəm".

Bu fikirləri Bakıda səfərdə olan Beynəlxalq Ağır Atletika Federasiyasının (BAAF) prezidenti Tomaş Ayan sentyabrın 20-də keçirdiyi mətbuat konfransında deyib.

Ölkəmizə yenidən səfər etməkdən məmnunluğunu bildirən Tomaş Ayan Azərbaycan və dünya ağır atletikasının hazırkı vəziyyəti və yaranmış problemlərin həlli barədə məlumat verib. O, qeyd edib ki, Azərbaycanda ağırlıqqaldırmaya böyük maraq var və bu idman növü sevilir. Azərbaycan idmançıları beynəlxalq yarışlarda kifayət qədər uğurlu nəticələr qazanırlar.

*(ardı 2-ci səhifədə)*

## BUENOS-AYRES-2018

### Yeniyetmələrin III Yay Olimpiya Oyunları



X ü s u s i   b u r a x ı l ı ş

**Səh. 3-6**

# Bakıda cüdo üzrə dünya çempionatının təntənəli açılış mərasimi keçirilib

## *Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib*

*(əvvəli 1-ci səhifədə)*

Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycanda bədən tərbiyəsi və idmana dövlət səviyyəsində göstərilən qayğı gündən-günə artır. Yeni idman kompleksləri tikilir, idmanın maddi-texniki bazası möhkəmləndirilir, bu istiqamətdə böyük layihələr həyata keçirilir. Azərbaycan artıq beynəlxalq qurumların etimadını qazanıb və bir çox mötəbər tədbirlərə yüksək səviyyədə ev sahibliyi edib. 2015-ci ildə birinci Avropa Oyunları, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları, eləcə də bir çox idman növləri üzrə ölkəmizdə keçirilmiş Avropa və dünya çempionatları yüksək təşkilatçılıq səviyyəsi ilə dünya idman ictimaiyyətinin dərin rəğbətini qazanıb.

Biz ilk dəfə cüdo üzrə dünya çempionatına ev sahibliyi edirik. Bu böyük etimada görə Beynəlxalq Cüdo Federasiyasına dərin minnətdarlığımı bildirirəm. İnanıram ki, bu möhtəşəm tədbir respublikamızda cüdonun daha geniş təbliğ olunması baxımından çox böyük əhəmiyyət daşıyacaq. Artıq deyə bilərik ki, cüdo Azərbaycanda populyar idman növlərindəndir və ölkəmizin bütün bölgələrində cüdo ilə məşğul olurlar.

Əmin olduğumu bildirmək istəyirəm ki, Bakı çempionatı idman həvəskarları üçün möhtəşəm bir bayrama çevriləcək. Azərbaycanın cüdo azarkeşləri, ilk dəfə olaraq, dünyanın ən güclü cüdoçularının tatami üzərində mübarizəsini canlı izləmək fürsəti əldə edəcəklər. Şübhə etmirəm ki, çempionatın bütün iştirakçıları bu böyük idman mübarizəsində qazanılan nəticələrdən asılı olmayaraq, Azərbaycandan xoş təəssüratla ayrılacaq, ölkəmiz və xalqımız haqqında xatirələr hər bir cüdoçunun yaddaşında silinməz izlər qoyacaq.

Sonda hamınıza unudulmaz anlar, güclü rəqabət və uğurlar arzu edirəm.

Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius VİZER çıxış edərək dedi:

- Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov, Azərbaycan Cüdo Federasiyasının prezidenti Rövnəq Abdullayev, hörmətli qonaqlar, xanımlar və cənablar, hörmətli idmançılar və tamaşaçılar.

İcazə verin, Beynəlxalq Cüdo Federasiyası adından və ümumiyyətlə cüdo ailəsi adından Azərbaycan Respublikasına bu mötəbər tədbiri gözəl təşkil etdiyinə görə öz təşəkkürümüzü bildirək. Bakıdakı tədbir doğrudan da çox gözəldir, eyni zamanda, dostluq və qonaqpərvərlik bütün iştirakçıları valeh edir. Azərbaycan yalnız yüksək iqtisadi göstəricilərə malik bir ölkə deyil, eyni zamanda, mədəniyyət, idman, incəsənət və digər sahələrə böyük sərmayələr yatıran bir ölkədir. Bir çox mötəbər idman tədbirlərini, Avropa və dünya çempionatlarını təşkil edən, həmçinin bir çox idman layihələrini həyata keçirən Azərbaycan artıq dünyada inkişafa və firavan yaşayışa töhfə verən bir dövlətdir.

Hər birinizə bu mötəbər yarışlarda uğurlar diləyirəm. Eyni zamanda, ümid edirəm ki, Bakı şəhərindən zövq alacaqsınız, öz mədəniyyətinizlə yerli mədəniyyət arasında mübadilə aparmaq və qarşılıqlı münasibət qurmaq imkanı qazanacaqsınız. Bütün idmançılara və iştirakçılara, hər birinizə ən xoş arzularımı çatdırmaq istəyirəm.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cüdo üzrə dünya çempionatını açıq elan etdi.

Azərbaycan Respublikasının dövlət himni və Beynəlxalq Cüdo Federasiyasının himni səsləndirildi.

Daha sonra qrafik video elementlərdən ibarət videoçarx nümayiş etdirildi.

Azərbaycanın incəsənət xadimlərinin məxsusi olaraq tədbir üçün hazırlanmış çıxışları təqdim olundu.

Açılış mərasimi məşhur italiyalı müğənni Al Banonun konsert proqramı ilə başa çatdı.

Mərasimin sonunda Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Avropa Olimpiya Komitələrinin sabiq prezidenti, cüdo veteranı Patrik Hikki və dünya şöhrətli müğənni Al Bano ilə çay süfrəsi arxasında söhbət etdilər.

Xatırladaq ki, sentyabrın 27-dək davam edəcək cüdo üzrə dünya çempionatında 125 ölkədən 800-dək idmançı mübarizə aparır. Azərbaycan çempionatda 9 kişi və 6 qadın idmançı ilə təmsil olunur.

## Vitse-kansler: “Avstriyada da şahmat, cüdo və güləş idman növlərinin Azərbaycandakı səviyyəyə yüksəlməsini istərdim”



***Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov ölkəmizdə rəsmi səfərdə olan Avstriya Respublikasının vitse-kansleri, federativ idman naziri Heinz-Kristian Ştaxenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Nazir həmkarına Azərbaycana səfər etdiyi və idman sahəsindəki inkişafa böyük maraq göstərdiyi üçün təşəkkürünü bildirdi, avstriyalı idmançıları Azərbaycana təlim-məşq toplantılarına, təcrübə mübadiləsinə dəvət etdi.

Azad Rəhimov bildirdi ki, bu gün Azərbaycanda fəaliyyət göstərən Olimpiya İdman komplekslərində idmanın inkişafı, idmançıların birgə təlim-məşq toplantılarına qatılmaları üçün hər bir şərait var. Bununla yanaşı, nazir Azərbaycanın ilk Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Formula 1 Grand Prix turniri, Şahmat üzrə Dünya Olimpiadasına ev sahibliyi etdiyini vurğuladı, müxtəlif layihələrin həyata keçirilməsi istiqamətində Avstriya ilə əməkdaşlıq edə biləcəyini də diqqətə çatdırdı.

Azad Rəhimov görüş zamanı 2015-ci ildə Azərbaycanda ilk Avropa Oyunları zamanı avstriyalı idmançı Vanessa Şahinoviçin düşdüyü qəzadan sonra Azərbaycan hökumətinin atletin sağalması istiqamətində bütün dəstəyi göstərdiyini və bu işdə vitse-kansler Heinz-Kristian Ştaxenin xidməti olduğunu qeyd edərək, ona dərin təşəkkürünü bildirdi.

Öz növbəsində vitse-kansler, federativ idman naziri Heinz-Kristian Ştaxen də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə atlet Vanessa Şahinoviçin sağlamlığına çox həssas yanaşdığını, hər bir diqqət və qayğı göstərdiyini bildirərək, buna görə təşəkkür etdi.

Bununla yanaşı, vitse-kansler Azərbaycanda idmanın inkişafı ilə bağlı yaxından maraqlandığını, ölkəmizin bu sahədə qazandığı uğurların kifayət qədər yüksək olduğunu söylədi. Heinz-Kristian Ştaxen Azərbaycanın cüdo üzrə Dünya çempionatına çox ciddi hazırlaşdığını, bu istiqamətdə keçirilən bir sıra tədbirlərə də qatıldığını diqqətə çatdırdı. Avstriyada da şahmat, güləş və idman növlərinin Azərbaycanla eyni səviyyədə inkişafını arzuladığını xüsusi vurğulayan vitse-kansler böyük məmnuniyyətlə bu istiqamətlərdə qarşılıqlı əməkdaşlığa hazır olduğunu bildirdi.

## Azərbaycan Cüdo Federasiyasının Sumqayıt Təlim-Məşq Bazasının açılışı olub

*(əvvəli 1-ci səhifədə)*

Marius Vizer çıxışında hazırda Bakıda davam edən dünya çempionatını yüksək səviyyədə təşkil etdiyi üçün Azərbaycana təbrik və təşəkkürünü çatdırıb. O, zalda gördüyü şəraitdən razılığını bildirib: “Cüdo Olimpiya idman növü olmaqdan başqa insanda xarakter, cəmiyyətə inteqrasiya tərənnüm edir. Yarışda çempion olmaq önəmlidir. Amma daha əhəmiyyətlisi həyatda çempion olmaqdır. Bunun üçün cüdoda lazımi elementlər var. Bu mərkəz məndə çox yaxşı təəssürat oyatdı. Belə zal bəxş etdikərinə görə ACF və şəhər rəhbərliyinə təşəkkür edirəm. Cüdo ailəsi olaraq, sizin naliyyətlərinizlə qürur duyuram. Hamınıza idman karyeranızda və həyatda uğurlar arzulayıram”.

Sonra rəsmi şəxslər idmançılara cüdo formaları hədiyyə ediblər.

Zakir Fərəcəv Marius Vizerə onun yağlı boya ilə çəkilmiş portretini və Sumqayıtın rəmzi sayılan göyərçin suvenirini hədiyyə edib. İcra başçısı Əhməddin Rəcəbliyə də xüsusi hədiyyə verib.

## Beynəlxalq Ağır Atletika Federasiyasının prezidenti Bakıda səfərdə olub

*(əvvəli 1-ci səhifədə)*

2017-ci il iyununda Beynəlxalq Olimpiya Komitəsi ağırlıqqaldırmaya dair ciddi qərarlar qəbul edib. Təəssüf ki, 2008-ci il Pekin və 2012-ci il London Yay Olimpiya Oyunlarında iştirak edən bir sıra ağırlıqqaldıranlardan götürülmüş dopinq testinin nəticələrinə əsasən idmançılara cəzalar tətbiq olunub. Ağırlıqqaldıranların dopinq-testlərinin təkrar təhlilləri nəticəsində Azərbaycanla yanaşı, doqquz ölkənin bir neçə idmançısı yarışlarda iştirakdan kənarlaşdırılıb.

Beynəlxalq Olimpiya Komitəsi bu məsələlərlə bağlı ciddi xəbərdarlıq edib. Bununla əlaqədar təsirli tədbirlər görülüb. Odur ki, BAAF dopinqlə mübarizə üçün Təmiz İdman Komissiyası və İdman Proqramı Komissiyası yaradıb. Bu məsələdə BAAF Azərbaycan Ağır Atletika Federasiyası ilə sıx əməkdaşlıq edir. AAAF-ın prezidenti Cahangir Əsgərov ən yaxşı milli federasiya rəhbərlərindən biridir. Federasiya rəhbərliyinin gördüyü işlər təqdirəlayiqdir. Azərbaycanda bu idman növünün inkişafına kifayət qədər dəstək göstərilir.

“Pekin və London Olimpiadalarında iştirak etmiş idmançıların qan nümunələrinin təhlillərinin nəticələri və Azərbaycanın bir illik cəza alan 9 ölkə arasında olması məni təəccübləndirdi. Beynəlxalq Ağır Atletika Federasiyası bu idman növünün daha da təmiz olması üçün müxtəlif tövsiyələr irəli sürüb. Həmin tövsiyələr arasında bir sıra meyarlar da var. Bütün meyarları qəbul edən ölkə federasiyalarından biri də məhz Azərbaycan Ağır Atletika Federasiyası idi. Biz ağırlıqqaldırma sahəsində Azərbaycanı çox yaxşı tərəfdaş kimi görürük. Bu ilin iyununda Təmiz İdman Komissiyası mənə hesabat verdi ki, Azərbaycan Ağır Atletika Federasiyası bu meyarlara tam əməl edib. Ona görə də Azərbaycan idmançılarına nəzərdə tutulan vaxtdan əvvəl yarışlarda iştirak etməyə icazə verilib. Bu baxımdan, Azərbaycan 9 ölkə arasında cəzası yüngülləşdirilən və yarışlara qatılmağa icazə verilən ilk ölkə olub. Bu əməkdaşlığa görə Azərbaycan Ağır Atletika Federasiyasına minnətdarlıq edirəm”, - deyə BAAF-ın prezidenti bildirib.

Tomaş Ayan qeyd edib ki, AAAF-ın cəzası bir ildən səkkiz aya endirildiyi və bu cəza müddəti oktyabrda başa çatacağı üçün Azərbaycanın ağır atletləri Argentinanın paytaxtı Buenos-Ayresdə keçiriləcək Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında və Türkmənistanda təşkil olunacaq dünya çempionatında iştirak edə biləcəklər.

BAAF-ın prezidenti, həmçinin bildirib ki, Azərbaycan Ağır Atletika Federasiyasının rəhbərliyi ilə görüşdə ölkəmizdə dünya kuboku yarışının keçirilməsi məsələsini müzakirə edib. Azərbaycanın yüksək səviyyəli yarışlara uğurla ev sahibliyi etdiyini deyən Tomaş Ayan dünya kuboku yarışlarının ölkəmizdə təşkil olunmasını istədiyini də vurğulayıb.

## Bakıda Xüsusi Olimpiya Hərəkatı Gənc Liderlərinin 20-ci Qlobal Forumu keçirilir

***Sentyabrın 24-də Bakıda 45 ölkədən 220 qonağın iştirakı ilə Xüsusi Olimpiya Hərəkatı Gənc Liderlərinin inklüzivliyi təşviq edən 20-ci Qlobal Forumu işə başlayıb.***

Sentyabrın 28-dək davam edəcək forumda 120 gənc lider iştirak edəcək. Xüsusi Olimpiya Gənc Liderlərinin 20-ci forumu Xüsusi Olimpiya Hərəkatının 50-ci ildönümünə həsr olunmuş əsas tədbirlərdən biridir. Gənc liderlər əqli və fiziki imkanları məhdud gənclərin elm, təhsil, idman sahələri vasitəsilə bir çox layihələrdə aktiv iştirakını, vahid idmanın gücü- inklüziv hərəkatın daha da genişləndirilməsini, əqli və fiziki imkanları məhdud insanların biznes bacarıqlarının inkişafını və digər əhəmiyyət kəsb edən mövzuları müzakirə edəcəklər. Biznes qurumlarının, hökumətlərin, beynəlxalq təşkilatların nümayəndələri və Xüsusi Olimpiya Hərəkatının məqsədlərinə sadiq olan bir neçə tanınmış idmançı Forumda gənc liderləri ilhamlandıracaq.

Forum çərçivəsində Bakı İdman Sarayında voleybol üzrə Olimpiya çempionu Nikola Qrbiç ustad dərsi keçib. Əvvəlcə idmançının karyerasında qazandığı uğurlar barədə qısa videoçarx nümayiş olunub.

Sonra serbiyalı Olimpiya çempionu gənc idmançılara öz dəyərli məsləhətlərini verib, peşəkar voleybolçu olmaq üçün vacib olan amillərdən bəhs edib. N.Qrbiç gənc idmançıların böyük marağına səbəb olan müəyyən fəndlər göstərib, onlara topla hərəkətin, ötürmələrin yollarını və s. nümayiş etdirib.

Ustad dərslərinin yekununda qızlardan və oğlanlardan ibarət qarışıq voleybol komandaları birgə voleybol oynayıblar.

Qeyd edək ki, forum Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, habelə “Lions Clubs International”, “Stavros Niarchos Foundation” və digər təşkilatlar tərəfindən dəstəklənir.

## “Azərbaycan Ədalətli Oyunlar Hərəkatının ən fəal iştirakçılarından biridir”

Sentyabrın 16-dan 21-dək Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin (BƏOK) prezidenti Jeno Kamuti Azərbaycanda səfərdə olub. Macarıstanlı qonaq Azərbaycan Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyasının (AzƏOK) 20 illik yubiley mərasimində və BƏOK Dünya Ədalətli Oyunlar Mükafatlarının təqdimetmə mərasimində iştirak edib. Jeno Kamuti “Olimpiya dünyası” qəzetinin əməkdaşı ilə eksklüziv olaraq fikirlərini bölüşüb.



- İndiyədək Azərbaycana müxtəlif tədbirlərlə bağlı bir neçə dəfə səfər etmişəm. 2015-ci ildə ilk Avropa Olimpiya Oyunlarına qatılmaq mənim üçün unudulmaz bir təcrübə idi. Yarışların yüksək təşkilatçılıq, eləcə də ədalətli oyun ruhunda keçirilməsi diqqətimi daha çox cəlb etmişdi. Budəfəki səfərim AzƏOK-un 20 illik yubileyi və BƏOK-un Dünya Ədalətli Oyunlar Mükafatlarının təqdimetmə mərasimində iştirakla bağlı idi. Yeri gəlmişkən, yubiley münasibəti ilə AzƏOK-a təbriklərimi çatdırır və ən xoş arzularımı bildirmək istərdim. Azərbaycan Ədalətli Oyunlar Hərəkatının ən fəal iştirakçılarından biridir. Azərbaycan Milli Olimpiya Komitəsi həmişə Ədalətli Oyunlar Hərəkatına öz töhfələrini verib. Komitə yarandığı gündən etibarən, Beynəlxalq və Avropa Ədalətli Oyun Hərəkatının tədbirlərində fəal iştirak edir. Ölkə rəhbərliyi Ədalətli Oyunlar Hərəkatının təbliğinə yönəlmiş bütün təşəbbüsləri dəstəkləyirlər. Əlbəttə ki, bütün bunlar çox qürurvericidir.

Bildiyiniz kimi, Bakıda 2009-cu ildə Avropanın Ədalətli Oyun Hərəkatının 15-ci Assambleyası, 2015-ci ildə Avropa və Beynəlxalq Ədalətli Oyunlar Hərəkatlarının birgə Konqresi, Baş Assambleyası və Gala gecəsi yüksək səviyyədə keçirilib.

Azərbaycan Prezidenti, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevin ədalətli oyun dəyərlərinə həssaslığı və bu idealların beynəlxalq səviyyədə yayılmasında təşəbbüsü yüksək dəyərə layiqdir. Bakıda yüksək səviyyədə iki konqres və ümumi iclasların keçirilməsi cənab İlham Əliyevin dəstəyi ilə mümkün olub.

Xatırladım ki, təşkilatın Beynəlxalq Konqresində 2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti cənab İlham Əliyev BƏOK-un xüsusi medalına layiq görülüb.

Görülən uğurlu işlərin nəticəsidir ki, BƏOK tərəfindən Regional Ədalətli Oyunlar İnkişaf Mərkəzinin məhz Azərbaycanda açılmasına qərar verilib. Bu Mərkəz yaxın dövlətləri ətrafında birləşdirərək ədalətli oyunlar hərəkatının təbliğinə öz töhfələrini verəcək.

Qeyd etdiyim kimi, sentyabrın 18-də Azərbaycan həmçinin BƏOK-un Dünya Ədalətli Oyunlar Mükafatlarının təqdimetmə mərasimini təşkil etdi. Bu tədbirə azərbaycanlı dostlarımızla birgə qatılmaqdan böyük məmnunluq hissi duyduq. Bildiyiniz kimi, Azərbaycanın birinci xanımı, respublikanın I vitse-prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva “Dünya idmanında və ədalətli oyunların təbliğində nümunəvi xidmətlərinə görə” BƏOK-un Xüsusi Medalına layiq görülüb. Sevindirici haldır ki, bu gün Azərbaycanda idman, sağlam həyat tərzi, sivilizasiyaya və tərəqqiyə məhəbbət Azərbaycanın I vitse-prezidenti Mehriban Əliyeva tərəfindən də dəstəklənir.

Hörmətli Mehriban Əliyevanın Bakı şəhərində keçirilən ilk Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri kimi fəaliyyəti, eləcə də, idmançılara birbaşa dəstəyi, ölkə və dünya idmanının inkişafına verdiyi töhfələr yüksək qiymətə layiqdir.

Ümumiyyətlə, isti qonaqpərvərliyə və dəstəyə görə tədbirlərin Təşkilat Komitəsinə, Azərbaycan Gənclər və idman Nazirliyinə, Azərbaycan Milli Olimpiya Komitəsinə və AzƏOK-a öz təşəkkürümü bildirir, müvəfəqiyyətlər və uğurlu gələcək arzulayıram.

# BUENOS-AYRES-2018

## Yeniyetmələrin III Yay Olimpiya Oyunları



Xüsusi buraxılış

## Buenos-Ayres-2018-də iştirak edəcək Azərbaycan nümayəndə heyəti ilə görüş keçirilib

Milli Olimpiya Komitəsində (MOK) Argentinanın paytaxtı Buenos-Ayresdə keçiriləcək Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında iştirak edəcək Azərbaycan nümayəndə heyəti ilə görüş olub.



Görüşdə gənclər və idman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, MOK-un baş katibi Ağacan Abıyev, MOK-un baş katibinin müavini Azər Əliyev, idman federasiyalarının nümayəndələri və idmançılar iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə yarışda iştirak edəcək komandamız haqqında məlumat verib. "Bu gün Buenos-Ayres-2018-də iştirak edəcək idmançılara və onların məşqçilərinə Oyunlarla bağlı informasiyalar veriləcək. Bildiyiniz kimi, Buenos-Ayres-2018 sayca Yeniyetmələrin III Yay Olimpiya Oyunları olacaq. Xatırladım ki, ilk Oyunlar 2010-cu ildə Sinqapurda keçirilib. Həmin Oyunlarda bizim 12 idmançımız mübarizə aparırdı. Bu yarış idmançılarımız üçün uğurlu oldu. Komandamız 5-i qızıl və 3-ü gümüş olmaqla ümumilikdə 8 medal qazandı. 2014-cü ildə Nankində keçirilən II Yay Olimpiya Oyunlarında isə komandamız 21 idmançı ilə təmsil olunurdu. Bu Oyunlarda medallarımızın sayı 12-yə çatdı. Medallardan 5-i qızıl, 6-ı gümüş, 1-i isə bürünc idi. Buenos-Ayres-2018-də isə ölkəmiz 17 idmançı ilə təmsil olunacaq. Bütün idmançılarımız öz güclərinə inanırlar. Ümid edirəm ki, onlar vətənə medallarla qayıtmağı bacaracaqlar", - deyə Çingiz Hüseynzadə bildirib.

Bu yarışlarda Azərbaycan nümayəndə heyətinin şef-de missionu Mehman Kərimov oyunlar çərçivəsində Milli Olimpiya Komitəsi və Olimpiya komandamızın tərəfdaşı "Toyota Qafqaz" MMC-ni iştirakçılara təqdim edib. Oyunların təbliğatı və təbliq ediləcək bir sıra vacib yeniliklər haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.

Oyunların gənc səfiri qismində Azərbaycanı təmsil edəcək Səkinə Vəliyeva Argentina, Buenos-Ayres, oyunlar, nümayəndə heyətinin qalacağı Olimpiya Kəndi və yarış yerləri haqqında təqdimatlar edib. O, Oyunlarda 206 ölkədən idmançıların iştirakının nəzərdə tutulduğunu deyib. Onlar 32 idman növü üzrə yarışacaqlar.

Sonra Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) rəhbəri Şəfəq Hüseynli iştirakçılara Oyunlardan əvvəl və Oyunlar zamanı dopinqlə mübarizə çərçivəsində həyata keçiriləcək tədbirlər haqqında ətraflı məlumat verib.

Tədbirdə Olimpiya komandasının Argentinaya gediş-gəlişi, geyimi, akkreditasiya və digər texniki məsələlər barədə iştirakçıları məlumat verilib.

Xatırladaq ki, Yeniyetmələrin III Yay Olimpiya Oyunları oktyabrın 6-dan 18-dək keçiriləcək. Azərbaycan Olimpiya Komandasının əsas hissəsi oktyabrın 4-də Buenos-Ayresə yola düşəcək.

Azərbaycan Olimpiya Komandası 17 idmançı (8 qız, 9 oğlan), 12 məşqçi və hakimdən, media təmsilçilərindən, nümayəndə heyətinin rəhbərindən və gənc səfirdən ibarətdir. Bundan başqa, nümayəndə heyətinə Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi və bəzi federasiyaların rəhbərləri daxildir.

İdmançılarımız olimpiadaya 9 idman növü üzrə lisenziya əldə ediblər. Olimpiya yığmasının tərkibində Azərbaycanı üzgüçü Fatimə Alkərəmova, stolüstü tennisçilər Ninq Jinq və Yu Xinhanq, taekvondoçular Minayə Əkbərova (44 kq çəki dərəcəsində) və Cavad Ağayev (63 kq), boksçular Nurlan Səfərov (60 kq) və Nicat Həsənov (69 kq), güləşçilər Turan Bayramov (65 kq) və Şəhanə Nəzərova (43 kq), gimnastlar Yelizaveta Luzan və Səməd Məmmədli, cüdoçular Vüsalə Kərimova (44 kq) və Vüqar Talıbov (66 kq), ağırlıqqaldıranlar Tərmenxan Babayev (85 kq) və Lalə Rzazadə (58 kq), atletlər Rüstəm Məmmədov (üçtəkanla uzununa tullanma) və Fəxriyyə Tağızadə (100 metr məsafəyə qaçış) təmsil edəcəklər.



## "Xoş küləklər limanı"nda böyük idman bayramı başlayır



Yeniyetmələrin Olimpiya Oyunları Beynəlxalq Olimpiya Komitəsinin dəstəyi və himayəsi altında 14-18 yaşlı idmançılar arasında keçirilir. İlk belə yarışlar 8 il bundan əvvəl Sinqapurda keçirilib.

2010-cu il avqustun 14-dən 26-na kimi Sinqapurda keçirilən Yeniyetmələrin I Yay Olimpiya Oyunları yeniyetmə idmançıların, idmansevərlərin yaddaşında həmişəlik qaldı. İdman və Olimpiya Oyunlarının tarixinə qızıl hərflərlə yazılan bu olimpiadada yeniyetmələr dostluq, qardaşlıq, biri-birinə hörmət, məhəbbət nümayiş etdirdilər. Onlar bir daha sübut etdilər ki, idman ayrı-ayrı xalqların, dövlətlərin arasında sülh, əməkdaşlıq, mehriban münasibət yaradan bir qüvvədir.

Yeniyetmələrin Sinqapur-2010 Yay Olimpiya Oyunlarında dünyanın 205 ölkəsindən 3600 idmançı 26 növ üzrə yarışlarda mübarizə apardı. Olimpiadada 6 idman növü üzrə 12 idmançı (5 güləşçi, 3 boksçu, 1 ağırlıqqaldıran, 1 cüdoçu, 1 taekvondoçu, 1 kanoeçi) ilə təmsil olunan Azərbaycan komandası yarışları 8 medalla uğurla başa vurdu. 12 gün davam edən və yalnız 97 ölkənin medal qazandığı yarışlarda ölkəmiz ABŞ, Çin, Rusiya kimi ölkələrlə bir sırada yer aldı. Ölkəmiz 8 medalla (5 qızıl, 3 gümüş) dünya ölkələri sırasında 11-ci, Avropa ölkələri sırasında 6-cı yeri tutdu.



İdmançılarımızdan Sinqapur-2010 Olimpiadasında Murad Bazarov (yunan-Roma güləşi, 42 kq), Elman Muxtarov (yunan-Roma güləşi, 50 kq), Patimat Baqomedova (qadın güləşi, 52 kq), Nicat Rəhimov (ağırlıqqaldırma, 69 kq), Əli Mamomeddabirov (sərbəst güləş, 100 kq) qızıl medal qazandılar. Kənan Quliyev (sərbəst güləş, 54 kq), Salman Əlizadə (48 kq) və Elvin İsayev (boks, 57 kq) isə olimpiadanın gümüş medalına layiq görüldülər.

Yeniyetmələrin II Yay Olimpiya Oyunları isə avqustun 16-dan Çinin Nankin şəhərində keçirildi. Nankin-2014 Olimpiadasında 201 ölkədən 3600-ə qədər atlet 28 idman növündə mübarizə apardı. Azərbaycan yığması Yeniyetmələrin II Yay Olimpiya Oyunlarını 12 medalla 10-cu pillədə başa vurdu. Əldə olunan medallardan 5-i qızıl, 6-sı gümüş 1-i isə bürünc medal idi. Qeyd edək ki, yarışlarda yalnız 87 ölkənin təmsilçiləri medal qazana bildilər.

Təmsilçilərimizdən Teymur Məmmədov (63 kq), İqbal Hacızadə (100 kq), Rüfət Hüseynov (49 kq), Leyla Qurbanova (52 kq, qadın güləşi), İslambek Dadov (69 kq, yunan-Roma güləşi), Səid Quliyev (73 kq, taekvondo) qızıl, Leyla Əliyeva (44 kq), Natiq Qurbanlı (55 kq, hər ikisi cüdo), Ceren Özbek (44 kq, taekvondoçu), Cabbar Nəcəfov (50 kq, yunan-Roma güləşi), Boris Yotov (akademik avarçəkən) gümüş və Nazim Babayev (atletika) bürünc medala layiq görüldülər.

Yeniyetmələrin III Yay Olimpiya Oyunları isə bu il oktyabr ayının 6-18-də Argentinanın paytaxtı Buenos-Ayresdə təşkil ediləcək. Yarışlarda dünyanın 206 ölkəsindən 3998 idmançı 32 idman növündə qüvvəsini sınayacaq. Azərbaycan komandası Cənubi Amerikada 9 idman növündə 17 idmançı ilə təmsil olunacaq. İdmançılarımız boks, atletika, stolüstü tennis, taekvondo, cüdo, güləş, gimnastika, ağırlıqqaldırma və üzgüçülük yarışlarında medallar uğrunda mübarizə aparacaqlar.




# Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına lisenziya qazanan idmançılarımız

## GİMNASTİKA



**Adı:** Səməd
**Soyadı:** Məmmədli
**Təvəllüdü:** 26.10.2002
**İdman növü:** idman gimnastikası
**Məşqçisi:** Gennadi Kotelnikov, Rza Əliyev
**Yarışlara başladığı tarix:** 2007-ci il
**Klubu:** BGM
**Kumiri:** yoxdur
**Hobbisi:** komputer oyunları
**SM hesabları:** @m.semed_ (instagram)
**Bildiyi dil:** Azərbaycan, rus
**Sevdiyi oyun/mahnı/kino:** "Counter strike" (komputer oyunu)
**İdman nailiyyətləri:** 2015-ci il - beynəlxalq turnir, Konya (Türkiyə) 1-ci yer (gimnastika atı, sərbəst hərəkətlər, paralel qollar) 2018-ci il beynəlxalq turnir, Budapeşt (Macarıstan), 1-ci yer (çoxnövçülük, gimnastika atı), 2-ci yer (dayaqlı tullanma), 3-cü yer (parallel qollar). 2018-ci il Beynəlxalq turnir, Berlin (Almaniya), 1-ci yer (final - dəstəli at, paralel qollar)
**Lisenziya qazandığı yarış:** Bakıda keçirilən idman gimnastikası üzrə lisenziya turniri



## CÜDO



**Adı:** Vüqar
**Soyadı:** Talıbov
**Təvəllüdü:** 17.08.2003
**İdman növü:** cüdo
**Çəkisi:** 66 kq
**Məşqçisi:** Aslan Hacıyev
**Yarışlara başladığı tarix:** 2017-ci il
**Klubu:** ROİL
**Kumiri:** İlias İliadis
**Hobbisi:** yemək bişirmək
**SM hesabları:** @_vuqartalibov (instagram)
**Bildiyi dil:** Azərbaycan, türk
**Sevdiyi oyun/mahnı/kino:** "Clash of clans" oyunu, "shape of you" mahnısı
**İdman nailiyyətləri:** 2018-ci ildə keçirilən Avropa kubokunun qızıl medalçısı, Asiya kubokunun bürünc medalçısı
**Lisenziya qazandığı yarış:** Çində keçirilən Asiya kuboku yarışı



## GİMNASTİKA



**Adı:** Yelizaveta
**Soyadı:** Luzan
**Təvəllüdü:** 14.03.2003
**İdman növü:** bədii gimnastika
**Məşqçisi:** Nigar Abdusalimova, Mariana Vasileva
**Yarışlara başladığı tarix:** 2015-ci il
**Klubu:** "Ocaq" İK
**Kumiri:** Anna Rizəttinova
**Hobbisi:** musiqi dinləmək, kinoya baxmaq
**SM hesabları:** @lizaluzan (instagram)
**Bildiyi dil:** rus, Ukrayna, ingilis
**Sevdiyi oyun/mahnı/kino:** 1+1/ (kino) "Intouchables" (mahnı)
**İdman nailiyyətləri:** Bakı çempionatı və Azərbaycan birinciliyinin qalibi, çoxnövçülük (2014). Azərbaycan çempionatı və Bakı birinciliyində 1-ci yer, çoxnövçülük (2018), "GymBala" adlı beynəlxalq turnir, 1-ci yer, top (2018).
**Lisenziya qazandığı yarış:** Moskvada Yeniyetmələrin Yay Olimpiya Oyunlarına lisenziya xarakterli yarış



## AĞIRLIQQALDIRMA



**Adı:** Lalə
**Soyadı:** Rzazadə
**Təvəllüdü:** 28.12.2001
**İdman növü:** ağırlıqqaldırma
**Çəkisi:** 58 kq
**Məşqçisi:** Teymur Əliquliyev
**Yarışlara başladığı tarix:** 2013-cü il sentyabr
**Klubu:** "Zirvə" İC
**Kumiri:** Sergey Çeçir
**Hobbisi:** idman
**SM hesabları:** @rzyva (instagram)
**Bildiyi dil:** Azərbaycan, türk
Sevdiyi oyun/mahnı/kino: "Crash Bandicoot"/ "Vie Ne Ment Pas"/ "Alatoranlıq"
**İdman nailiyyətləri:** Azərbaycan çempionu, beynəlxalq yarışların iştirakçısı
**Lisenziya qazandığı yarış:** Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına lisenziyanı wild-card əsasında qazanıb



## BOKS



**Adı:** Nicat
**Soyadı:** Həsənov
**Təvəllüdü:** 12.02.2000
**İdman növü:** boks
**Çəkisi:** 69 kq
**Məşqçisi:** Rəhim Allahverdiyev
**Yarışlara başladığı tarix:** 2009-cu il
**Klubu:** "Qızıl ələk" İK
**Kumiri:** Alvarez Canelo
**Hobbisi:** Təmiz havada gəzmək
**SM hesabları:** @hasanov_nicat (instagram)
**Bildiyi dil:** Azərbaycan, türk
**Sevdiyi oyun/mahnı/kino:** bilyard oyunu
**İdman nailiyyətləri:** Avropa birinciliyinin gümüş mükafatçısı
**Lisenziya qazandığı yarış:** İtaliyada keçirilən Avropa çempionatı



## AĞIRLIQQALDIRMA



**Adı:** Tərmenxan
**Soyadı:** Babayev
**Təvəllüdü:** 08.01.2002
**İdman növü:** ağırlıqqaldırma
**Çəkisi:** 85 kq
**Məşqçisi:** Şəfi Hüseynov
**Yarışlara başladığı tarix:** 2013-cü il
**Klubu:** "Təhsil" RİM
**Kumiri:** Nizami Paşayev
**Hobbisi:** idman
**SM hesabları:** @termenxan (instagram)
**Bildiyi dil:** Azərbaycan, türk
**Sevdiyi oyun/mahnı/kino:** "Guns of Boom"/ Mahmut Orhan - "Save Me feat". "Eneli"/ "Forsaj 8"
**İdman nailiyyətləri:** Kosovonun paytaxtı Priştinada keçiriləcək dünya birinciliyinin qalibi (2017-ci), İtaliyanın Milan şəhərində keçirilən Avropa birinciliyinin qalibi (2018)
**Lisenziya qazandığı yarış:** 2017-ci ildə Tailandın paytaxtı Banqkokda keçirilən Dünya çempionatı



## GÜLƏŞ



**Adı:** Şahanə
**Soyadı:** Nəzərova
**Təvəllüdü:** 28.05.2001
**İdman növü:** qadın güləşi
**Çəkisi:** 43 kq
**Məşqçisi:** Ağadədə Allahverdiyev
**Yarışlara başladığı tarix:** 2007-ci il
**Klubu:** "Neftçi İdman Kulubu" İB
**Kumiri:** yoxdur
**Hobbisi:** İdman
**SM hesabları:** yoxdur
**Bildiyi dil:**: Azərbaycan, türk
**Sevdiyi oyun/mahnı/kino:** "Kleopatra" (film)
**İdman nailiyyətləri:** 38 kq çəki dərəcəsində dünya və Avropa çempionu (2017), 43 kq çəkidə dünya və Avropa ikincisi (2018)
**Lisenziya qazandığı yarış:** Makedoniyanın Skopye şəhərində keçirilən Avropa çempionatı



## STOLÜSTÜ TENNİS



**Adı:** Ning
**Soyadı:** Jing
**Təvəllüdü:** 16.03.2000
**İdman növü:** stolüstü tennis
**Məşqçisi:** Mixail Timofeyev
**Yarışlara başladığı tarix:** 2007-ci il
**Klubu:** "Qarabağ NN" İK
**Kumiri:** Dmitri Ovtçarov
**Hobbisi:** musiqi dinləmək
**SM hesabları:** yoxdur
**Bildiyi dil:** Çin
**Sevdiyi oyun/mahnı/kino:** "Block Puzzle"/ Dua Lipa - "Be The One"/ "Əvəzedici qatillər"
**İdman nailiyyətləri:** 2016-cı ildə Xorvatiyada keçirilən yeniyetmələr və gənclərin stolüstü tennis üzrə Avropa çempionatında gənclərin şəxsi birinciliyində 2-ci yer, 2017-ci ildə Portuqaliyada keçirilən Avropa çempionatında şəxsi yarışlarda I yer, qoşa yarışlarda II yer, komanda hesabında III yer, 2018-ci ildə Rumıniyada keçirilən gənclərin Avropa çempionatında şəxsi oyunlarda I yer, qızlardan ibarət yığmanın tərkibində komanda hesabında qızıl medal, qoşa yarışlarda II yer
**Lisenziya qazandığı yarış:** 2017-ci ilin noyabr ayında Xorvatiyanın Split şəhərində keçirilən Avropa təsnifat turniri






# Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına lisenziya qazanan idmançılarımız

## ATLETİKA



**Adı:** Rüstəm
**Soyadı:** Məmmədov
**Təvəllüdü:** 21.02.2001
**İdman növü:** atletika (üçtəkanla tullanma)
**Məşqçisi:** Sergey Antipov, Nazim İsrafilov
**Yarışlara başladığı tarix:** 2014-cü il
**Klubu:** “Atletiks” klub və “Təhsil” RİM
**Kumiri:** Kristian Teylor
**Hobbisi:** kinoya baxmaq
**SM hesabları:** @rustam_mdv (instagram), Rustam Mamedov (facebook)
**Bildiyi dil:** Azərbaycan, rus
**Sevdiyi oyun/ mahnı/kino:** “Never give up” filmi
**İdman nailiyyətləri:** Avropa çempionatının bürünc mükafatçısı
**Lisenziya qazandığı yarış:** Macarıstanın Gyor şəhərində keçirilən Avropa çempionatı



## TAEKVONDO



**Adı:** Cavad
**Soyadı:** Ağayev
**Təvəllüdü:** 15.01.2002
**İdman növü:** taekvondo
**Çəkisi:** 63 kq
**Məşqçisi:** Samir Aydınlı
**Yarışlara başladığı tarix:** 2017-ci il
**Klubu:** “Qəbələ” İK
**Kumiri:** yoxdur
**Hobbisi:** futbol oynamaq
**Bildiyi dil:** Azərbaycan
**SM hesabları:** @cavad_agayev (instagram)
**Sevdiyi oyun/mahnı/kino:** yoxdur
**İdman nailiyyətləri:** Dünya birinciliyinin qalibi
**Lisenziya qazandığı yarış:** 2018-ci ilin aprel ayında Tunisin Hammamet şəhərində təşkil olunan lisenziya xarakterli yarış



## GÜLƏŞ



**Adı:** Turan
**Soyadı:** Bayramov
**Təvəllüdü:** 11.01.2001
**İdman növü:** sərbəst güləş
**Çəkisi:** 65 kq
**Məşqçisi:** Abil İbrahimov
**Yarışlara başladığı tarix:** 2011
**Klubu:** “Zenit” BTİCİB
**Kumiri:** yoxdur
**Hobbisi:** kitab oxumaq
**SM hesabları:** yoxdur
**Bildiyi dil:** türk, rus
**Sevdiyi oyun/mahnı/kino:** “Dabbe” (kino)
**İdman nailiyyətləri:** 58 kq-da dünya çempionatının ikincisi (2017), 65 kq çəkidə dünya və Avropa çempionu (2018)
**Lisenziya qazandığı yarış:** Makedoniyanın Skopye şəhərində keçirilən Avropa çempionatı.



## ÜZGÜÇÜLÜK



**Adı:** Fatimə
**Soyadı:** Alkərəmova
**Təvəllüdü:** 26.06.2002
**İdman növü:** üzgüçülük
**Məşqçisi:** Sergey Bondar
**Yarışlara başladığı tarix:** 2012-ci il
**Klubu:** “Sərhədçi” İSM
**Kumiri:** Maykl Felps
**Hobbisi:** kitab oxumaq, musiqi dinləmək
**SM hesabları:** @alkaramova_fatima (istagram), Fatime Alkeremova (facebook)
**Bildiyi dil:** Azərbaycan, ingilis, rus
**Sevdiyi oyun/mahnı/kino:** “Katchi”
**İdman nailiyyətləri:** Gənclər arasında Avropa Olimpiya festivalının finalçısı
**Lisenziya qazandığı yarış:** 2017-ci il Sloveniyanın Kranj şəhərində keçirilən lisenziya xarakterli yarış, IV İslam Həmrəyliyi Oyunlarının ikiqat bürünc mükafatçısı



## BOKS



**Adı:** Nurlan
**Soyadı:** Səfərov
**Təvəllüdü:** 28.09.2000
**İdman növü:** boks
**Çəkisi:** 60 kq
**Məşqçisi:** Rasim Məmmədov
**Yarışa başladığı tarix:** 2008-ci il
**Klubu:** “Rabitə” İK
**Kumiri:** Floyd Meyvezer
**Hobbisi:** velosiped sürmək
**SM hesabları:** @nurlan_4ik777 (instagram), Safarov Nurlan (vkontakte)
**Bildiyi dil:** Azərbaycan, rus
**Sevdiyi oyun/mahnı/kino:** bouling, futbol
**İdman nailiyyətləri:** Avropa çempionu
**Lisenziya qazandığı yarış:** İtaliyada keçirilən Avropa çempionatı



## TAEKVONDO



**Adı:** Minayə
**Soyadı:** Əkbərova
**Təvəllüdü:** 19.07.2001
**İdman növü:** taekvondo
**Çəkisi:** 44 kq
**Məşqçisi:** Tapdıq Əkbərov
**Yarışlara başladığı tarix:** 2008-ci il
**Klubu:** “Aran” taekvondo klubu
**Kumiri:** yoxdur
**Hobbisi:** futbol oynamaq
**SM hesabları:** @akbarovaminayə (instagram)
**Bildiyi dil:** Azərbaycan
**Sevdiyi oyun/mahnı/kino:** “X-Equis 2018” (mahnı)
**İdman nailiyyətləri:** 2014-cü ildə keçirilən yeniyetmələr arasında dünya çempionatının gümüş medalçısı, 2018-ci ildə Avropa çempionatının qalibi
**Lisenziya qazandığı yarış:** 2018-ci ilin aprel ayında Tunisin Hammamet şəhərində təşkil olunan lisenziya xarakterli yarış



## CÜDO



**Adı:** Vüsalə
**Soyadı:** Kərimova
**Təvəllüdü:** 11.10.2001
**İdman növü:** cüdo
**Çəkisi:** 44 kq
**Məşqçisi:** Bəhlul Ağamaliyev
**Yarışlara başladığı tarix:** 2016-cı il
**Klubu:** “Turan” İK
**Kumiri:** Nazim Hüseynov
**Hobbisi:** musiqi dinləmək
**SM hesabları:** @k_vusale (instagram), Vüsale Kerimova (facebook)
**Bildiyi dil:** Azərbaycan
**Sevdiyi oyun/mahnı/kino:** “Cheap Thrills” mahnısı
**İdman nailiyyətləri:** 2017-ci ildə Litvanın Kaunas şəhərində təşkil olunan Avropa çempionatının qızıl medalçısı, Tunisdə keçirilən Afrika kubokunun qalibi
**Lisenziya qazandığı yarış:** Tunisdə keçirilən Afrika kuboku



## ATLETİKA



**Adı:** Fəxriyyə
**Soyadı:** Tağızadə
**Təvəllüdü:** 16.12.2002
**İdman növü:** atletika (100 m məsafəyə qaçış)
**Məşqçisi:** Teymur Qasımov
**Yarışlara başladığı tarix:** 2014-cü il
**Klubu:** “Rekord” İK
**Kumiri:** Asafa Powel, Dafne Şippers
**Hobbisi:** musiqi dinləmək
**SM hesabları:** @faha.t (instagram), Faha Tagizade (facebook)
**Bildiyi dil:** Azərbaycan, rus, ingilis, alman
**Sevdiyi oyun/mahnı/kino:** PUBG/ “İn My Mind”/ “Şouşenkdən qaçış”
**İdman nailiyyətləri:** Asiya Oyunlarının qızıl medalçısı
**Lisenziya qazandığı yarış:** Macarıstanın Gyor şəhərində keçirilən Avropa çempionatı



## STOLÜSTÜ TENNİS



**Adı:** Yu
**Soyadı:** Xinhanq
**Təvəllüdü:** 20.09.2001
**İdman növü:** Stolüstü tennis
**Məşqçisi:** Fərhad İsmayılov
**Yarışlara başladığı tarix:** 2008-ci il
**Klubu:** “Qarabağ NN” İK
**Kumiri:** Fan Zendonq
**Hobbisi:** musiqi dinləmək
**SM hesabları:** yoxdur
**Bildiyi dil:** Çin
**Sevdiyi oyun/mahnı/kino:** “Candy legend”/ Taylor Swit - “Look What You Made Me Do” /“Haçiko”
**İdman nailiyyətləri:** Tunisdə təşkil olunan təsnifat turnirinin qalibi
**Lisenziya qazandığı yarış:** 2018-ci ilin mart ayında Tunisdə keçirilən təsnifat turniri



**Qeyd:** Yeniyetmə idmançıların dosyeləri Beynəlxalq Olimpiya Komitəsinin qaydalarına əsasən hazırlanıb.




# "İnanıram ki, Oyunların Təşkilat Komitəsi bu işlərin öhdəsindən gəlməyi bacaracaq"

"Buenos-Ayres-2018-ə hazırlıqlar yüksək səviyyədə davam etdirilir. Oyunlar üçün ən əlamətdar hadisələrdən biri açılış mərasiminin şəhərin mərkəzində 250 min insanın iştirakı ilə keçirilməsi olacaq". Bu sözləri Milli Olimpiya Komitəsinin Marketinq idarəsinin rəisi, Buenos-Ayres-2018-də iştirak edəcək Azərbaycan nümayəndə heyətinin rəhbəri Mehman Kərimov "Olimpiya dünyası" qəzetinə deyib. Onun sözlərinə görə yarışlara hazırlıq artıq tamamlanmaq üzrədir. Atletlər Kəndi və yarışların keçiriləcəyi arenalar Oyunlar üçün tam hazır vəziyyətə gətirilib. "Yarışların təşkili ilə bağlı heç bir xüsusi dəyişiklik yoxdur. Bizi narahat edən əsas məsələ isə yarışda biletləri əvəz edəcək qolbaqların verilməsidir. Bu, ilk yarışdır ki, bilet satışı olmayacaq. Tamaşaçılar yarışları izləmək üçün xüsusi qolbaqlar almalıdırlar. Artıq yarım milyon insan bunun üçün müraciət edib. Təbii ki, bu qədər insana qolbaq vermək mümkün deyil. Lakin inanıram ki, Oyunların Təşkilat Komitəsi bu işlərin öhdəsindən gəlməyi bacaracaq. Ötən dəfə nümayəndə heyətlərinin seminarından qayıdandan sonra nəqliyyatla təminat və nəqliyat vasitələri üçün ayrılan zolaqların şəhərin hər tərəfini əhatə etməməsi ilə bağlı bəzi məsələlər bizi çox narahat edirdi. Təəssüf ki, bu məsələlər hələ öz həllini tapmayıb. Azərbaycan tərəfindən Oyunlara hazırlıq yüksək səviyyədə davam edir. Digər sevindirici məqam isə ondan ibarətdir ki, Azərbaycanın Argentinadakı səfirliyi bizimlə sıx əlaqədədir. Hər hansı bir problemimiz olduqda onlara müraciət edirik", - deyə Mehman Kərimov bildirdi.

## *"Bu ölkə idmanı üçün yeni bir hadisədir"*

Mehman Kərimov söhbət zamanı onu da qeyd etdi ki, 2017-ci ildən başlayaraq rəsmi olaraq "Toyota" şirkəti həm Beynəlxalq Olimpiya Komitəsinin, həm də Olimpiya Oyunlarının ümümdünya tərəfdaşlığına qoşulub. Azərbaycanın da "Toyota" şirkəti ilə tərəfdaşlığa qoşulduğunu deyən müsahibimiz həmçinin Buenos-Ayresdə komandamızın yeni idman növlərində təmsil olunacağını da qeyd etdi. "Əvvəlki Oyunlardan fərqli olaraq bu dəfə komandamız stolüstü tennis və gimnastika yarışlarında da təmsil olunacaq. Bu, ölkə idmanı üçün yeni bir hadisədir. Yeniyetmələrin olimpiadası böyüklərin Olimpiya Oyunlarından fərqlənir. Bu fərq ondan ibarətdir ki, rəsmi nümayəndə heyəti oktyabrın 6-dan gec olmayaraq Atletlər Kəndində qeydiyatdan keçməli və oktyabrın 18-dən tez həmin ərazini tərk etməməlidir. Bu, Oyunlar vaxtı ən vacib olan məqamlardan biridir", - deyə o, əlavə etdi.

## *"İdmançılar yeniyetmə yaşlarından bu dəyərlərə sadiq olsunlar"*

MOK-un marketinq idarəsinin rəisi, həmçinin onu da qeyd etdi ki, Yeniyetmələrin Olimpiya Oyunlarına ev sahibliyi edəcək şəhər seçiləndə xüsusi bir komponent var ki, şəhər məhz bu üstünlüyə görə qiymətləndirilir. Bu mədəni və təhsil proqramıdır. "İdmançılar Buenos-Ayresə təkcə yarışmaq üçün getmirlər. 206 ölkənin iştirak etdiyi bu Oyunlarda həm də idmançılar arasında mədəni əlaqə, dostluq və Olimpiya dəyərləri xüsusi rol oynayır. Mədəniyyət və təhsil proqramı bu dəyərlərin təşviqi üçündür ki, idmançılar yeniyetmə yaşlarından bu dəyərlərə sadiq olsunlar. Oyunlarla bağlı daha bir sevindirici məqam Azərbaycanın nümayəndə heyətinin tərkibində gənc səfirin yer alması ilə bağlıdır. Gənc səfirin seçilməsinin iki mühüm rolu var. Belə ki, bu səfirlər oyunlar zamanı idmançılarla işləyərək atletlərin mədəniyyət və təhsil proqramında iştirakını təmin edəcək, həmçinin idmançılar və əlaqədar qurumlar vasitəsi ilə oyunların təşviqini həyata keçirəcəklər. Oyunların intertent üzərindən rəqəmsal yayımı həyata keçiriləcək. Böyük qürurla qeyd etmək olar ki, Rio-2016 Yay Olimpiya Oyunlarından başlayaraq Milli Olimpiya Komitəsində bütün sosial media platforması tam gücü ilə işləyir.

## "Ümid edirəm ki, hazırlıqlarımız, zəhmətimiz Buenos-Ayresdə nəticəsiz qalmayacaq"

***Rəşad Əbdürəhmanov (üzgüçülük üzrə yığma komandanın baş məşqçisi):***



- Buenos-Ayresdə ölkəmizi üzgüçülük yarışlarında Fatimə Alkərəmova təmsil edəcək. O, yarışlara 4 məsafə üzrə lisenziya qazansa da, yalnız 200 m sərbəst üsulla üzmə yarışlarında mübarizə aparacaq. Bizim daha bir üzgüçümüz, Alsu Bayramova isə 2 məsafə üzrə lisenziya qazanmışdı. Lakin Beynəlxalq Olimpiya Komitəsinin və Beynəlxalq Üzgüçülük Federasiyasının qərarı ilə B lisenziyası qazanmış hər iki üzgüçü arasından ən yüksək FİNA xalı toplamış idmançı yarışlarda iştirak etmək hüququ əldə etdi. Ən yüksək xal nəzərə alındığına görə Alsu Bayramova bu yarışlarda iştirak etmək hüququndan məhrum edildi. Yarışlara hazırlıq prosesi yüksək səviyyədə davam edir. Bu ilin əvvəlindən yarışın hazırlıqlarına daha səylə hazırlaşmağa başladıq. Bu il ərzində Fatimə Alkərəmova gənclərin və böyüklərin Avropa çempionatlarında, reytinq yarışlarında və 2 təlim-məşq toplanışında iştirak edib. Təlim-məşq toplanışları Bolqarıstanda və Fransada təşkil olunub. Fatimə bu yaxınlarda Ukraynanın paytaxtı Kiyevdə reablitasiyadan keçdi. Bir sözlə, yetərincə hazırlıq prosesində iştirak etmişik. Demək olar ki, yarışlara hazırıq. Ümid edirəm ki, hazırlıqlarımız, zəhmətimiz Buenos-Ayresdə nəticəsiz qalmayacaq. Çalışacağıq ki, ən yaxşı nəticəmizi Argentina paytaxtında nümayiş etdirək.

## "İdmançının əsl ruhu, hazırlığı bu yarışlarda bilinir"

***Məmməd Abdullayev (Taekvondo üzrə gənclərdən ibarət yığma komandanın baş məşqçisi):***

- Yarışlarda taekvondo idman növündə iki idmançımız mübarizə aparacaq. Bildiyiniz kimi, Buenos-Ayres-2018-də iştirak etmək üçün onlar ilk 8-liyə düşməli idilər. Hər iki idmançımız ilk 8-liyə düşmüşdü.

Oyunlara artıq az vaxt qalıb. Biz də demək olar ki, hazırlıqlarımızın son mərhələsindəyik. İdmançılarımız Azərbaycan Taekvondo Federasiyasının zalında məşq edir və orada qalırlar. Taekvondoçularımız mübarizəyə oktyabrın ayının 7-də başlayacaqlar. İlk olaraq xanım idmançımız Minayə Əkbərova qüvvəsini sınayacaq. Oktyabrın 9-da isə Cavad Ağayev dayanq üzərinə çıxacaq. Proqnoz verməyi xoşlamıram. Amma çalışacağıq ki, bütün gücümüzü səfərbər edərək ölkəmizə uğurlu nəticə ilə qayıdaq. Yarışlara həm taktiki, texniki, həm də psixoloji cəhətdən hazırıq. Hər bir idmançı bilir ki, Olimpiya Oyunları tamam başqa yarışdır. Burada dünyanın seçilmiş ən güclü idmançıları yarışırlar. İdmançının əsl ruhu, hazırlığı bu yarışlarda bilinir. Qeyd etdiyim kimi, yarışlara hazırıq. İdmançılarımız çox sərbəstdirlər. Heç bir çətinliyimiz və problemimiz yoxdur.

İndi bir məsələ qalır ki, o da Cənubi Amerikada layiqli mübarizə aparmaqdır. Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının ən gənc idmançılarından biridir. Hazırlıqlarımız öz qaydasında davam edir. Əvvəlcə, iki həftə ərzində fiziki hazırlıq keçdik. Növbəti hazırlığımız isə Sumqayıt Olimpiya İdman Kompleksində oldu. Bu hazırlıqlar da iki həftə davam etdi. Bildiyiniz kimi, cüdoçularımız yarışa oktyabrın 7-də başlayacaqlar. Buna görə də 2014-cü ildə Nankində təşkil olunan Yeniyetmələrin II Yay Olimpiya Oyunlarında taekvondoçularımız 1 qızıl və 1 gümüş medal qazanıblar. İnanıram ki, bu Oyunlar da komandamız üçün düşərli olacaq.

## "İnanırıq ki, komandamız Cənubi Amerikadan uğurlu nəticə ilə qayıdacaq"

***Asif Məmmədov (Ağırlıqqaldırma üzrə yığma komandanın baş məşqçisi):***

- Bildiyiniz kimi, ağırlıqqaldırma üzrə iki lisenziyamız var. Oğlanların yarışında ölkəmizi Tərmenxan Babayev, qızların yarışında isə Lalə Rzazdə təmsil edəcək. Oğlanların yarışında idmançımız lisenziyanı Tailandın paytaxtı Banqkokda qazanıb. Qızlardan ibarət yığmamıza isə lisenziya Beynəlxalq Ağır Atletika Federasiyasından (IWF) daxil olan məktuba əsasən verilib. Bildiyiniz kimi, Yeniyetmələrin I Yay Olimpiya Oyunlarında ağırlıqaldıranımız qızıl medala layiq görülüb. Budəfəki yarışda da maksimum dərəcədə çalışacağıq ki, mükafatçılar sırasına düşək. Hazırlıqlarımız artıq demək olar ki, yekunlaşmaq üzrədir. Komandada hazırlıqla bağlı heç bir problem yoxdur. İnanırıq ki, komandamız Cənubi Amerikadan uğurlu nəticə ilə qayıdacaq. Düzdür, dəqiq deyə bilmərəm ki, komandamız Argentinadan hansı əyarlı medalla qayıdacaq. Lakin əsas məqsədimiz bu yarışda fəxri kürsüdə yer almaqdır.

## "Hər şey tatamidə həll olunacaq"

***Ramiz Ramizzadə (Cüdo üzrə yeniyetmələrdən ibarət yığma komandanın baş məşqçisi):***

- Cənubi Amerikada təşkil olunacaq Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına iki cüdoçumuz lisenziya qazanıb. Bunlar Vüsalə Kərimova (44 kq) və Vüqar Talıbovdur (66 kq). Vüsalə Kərimova ötən il Litvanın Kaunas şəhərində təşkil olunan yeniyetmələrin Avropa çempionatının qalibidir. Oğlanların yarışında mübarizə aparacaq Vüqar Talıbov isə Avropa kubokunun qızıl medalçısı, həmçinin Asiya kubokunun bürünc mükafatçısıdır. O, komandamız yarışlara uğyunlaşmaq üçün Argentinaya bir qədər tez, sentyabrın 29-da yollanacaq. Qabaqcadan proqnoz verməyi xoşlamıram. Hər şey tatamidə həll olunacaq. Hər iki idmançımız Cənubi Amerikaya medal qazanmaq üçün yollanır. Oyunlarda idmançılarımızın medal qazanmaq şansı yüksəkdir. İdmançılarımızın hər ikisinə inanıram.

## "Tennisçilərimiz mükafatlar üçün bütün bacarıqlarını nümayiş etdirəcəklər"

***Mixail Timofeyev (stolüstü tennis üzrə yığma komandanın baş məşqçisi):***

- Buenos-Ayres-2018 Yay Olimpiya Oyunlarının stolüstü tennis yarışlarında 32 oğlan və 32 qız idmançı mübarizə aparacaq. Fərdi qaydada keçiriləcək yarışlarda iki təmsilçimiz yarışacaq. Rəqiblər çox güclüdür. Belə mötəbər yarışlarda zəif idmançılar olmur. Lakin bizim komandamız da yarışlara yüksək səviyyədə hazırlaşıb. Tennisçilərimiz hazırda Çində təlim-məşq toplanışında iştirak edirlər. Yeniyetmələrin Olimpiya Oyunları çox möhtəşəm bir yarışdır. Bu yarışlarda mükafatçılar sırasına düşmək üçün çox böyük rəqabət olacaq. Burada püşkatmadan da çox şey asılıdır. İdmançılarımıza inanırıq. Tennisçilərimiz mükaftçılar sırasına düşmək üçün bütün bacarıqlarını nümayiş etdirəcəklər.

## "Gimnastlarımızın Buenos-Ayresdən Bakıya xoş əhval-ruhiyyə ilə qayıdacaqlarına inanıram"

***Mariana Vasileva (Bədii gimnastika üzrə yığma komandanın baş məşqçisi):***

- Gimnastika ilk dəfədir ki, yeniyetmələrin Olimpiya Oyunlarında nümayiş etdiriləcək. İndiyədək Azərbaycanı bu yarışlarda ancaq hakimlər təmsil edirdilər. İki gimnastımız - Yelizaveta Luzan və Səməd Məmmədli Yeniyetmələrin III Yay Olimpiadasında öz bacarıqlarını nümayiş etdirəcəklər. 3 hakimimiz - Rza Əliyev, Kamil Quliyev və Nigar Abdulsalimova bu yarışlarda ədaləti qoruyacaqlar. Gimnastikada əldə olunan uğurlar Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyevanın səmərəli fəaliyyətinin nəticəsidir. Federasiyamız gimnastikanın inkişafı üçün var-gücü ilə çalışır. Qeyd edim ki, bədii gimnastikada mübarizə çoxnövçülük üzrə yalnız 1 medal uğrunda gedəcək. İdman gimnastikasında isə idmançılar 7 medal uğrunda qüvvələrini sınayacaqlar. İndidən nəticə barədə danışmaq istəmirəm. Gimnastlarımızın Buenos-Ayresdən Bakıya xoş əhval-ruhiyyə ilə qayıdacaqlarına inanıram.

## "Güləşçilərimiz bu sınaqdan da üzüağ çıxacaqlar"

***Əsgərxan Novruzov (Yeniyetmələrdən ibarət yığma komandanın böyük məşqçisi):***

- Azərbaycan idmançıları yeniyetmələrin Olimpiya Oyunlarında artıq 3-cü dəfədir ki, iştirak edirlər. Güləş komandamız Sinqapur-2010 və Nankin-2014 Olimpiadasında yüksək nəticələr əldə ediblər. Ümumiyyətlə, pəhləvanlarımız həmişə adət-ənənəyə sadiq qalaraq müxtəlif mötəbər yarışlarda xalqımızı qələbələri ilə sevindiriblər. Nankində keçirilən olimpiadada sərbəst güləşçilərimiz 2 lisenziyadan ikisində də qızıl medal aldılar. Amma bu il qaydalar bir az çətinləşib. Buenos-Ayres Olimpiadasına lisenziya ancaq Avropa çempionu olana verilirdi. Halbuki 4 idmançımız bu yarışlarda iştirak edə bilərdi. Turan Bayramova da, Şahanə Nəzərovaya da inamım böyükdür. Onların hər ikisi dünya və Avropa çempionudurlar. Bu titullar asanlıqla qazanılmır. İnanıram ki, güləşçilərimiz bu sınaqdan da üzüağ çıxacaqlar.

## "Hər bir uğurlu nəticə atletlərimizin idmançı karyerasında silinməz iz qoyacaq"

***Nazim İsrafilov (Atletika üzrə gənclərdən ibarət yığma komandanın baş məşqçisi):***

- Hər iki idmançımızın yarışlarda mükafatalayiq nəticə göstərmək fürsəti var. Onlar ilk dəfədir ki, bu cür mötəbər idman tədbirində sınaq qarşısında olacaqlar. Hər bir uğurlu nəticə atletlərimizin idmançı karyerasında silinməz iz qoyacaq. Mən onlara bildirmişəm ki, belə imkan karyerası ərzində idmançıya çox az hallarda verilir. Çalışıb yaddaqlan nəticələr qazanmalıdırlar. Hər iki atletimizin bacarığına güvənirəm.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# Gənc nəslin sağlam və vətənpərvər ruhda böyüməsində ali təhsil müəssisələrinin rolu böyükdür

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bədən tərbiyəsi və idmana diqqət və qayğısı sayəsində ölkəmizdə gənc nəslin sağlam ruhda böyüyüb tərbiyə olunması, ölkədə bədən tərbiyəsi və idmanın kütləviliyinin təmin edilməsi, yüksək dərəcəli idmançıların hazırlanması, idmanın maddi-texniki bazasının gücləndirilməsi istiqamətində işlər uğurla davam etdirilir.***

***Şübhəsiz ki, gənc nəslin sağlam və vətənpərvər ruhda böyüməsində orta və ali təhsil müəssisələrinin rolu böyükdür. Gənc idmançıların təhsil aldığı Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası (ADBTİA) da öz işini günün tələbləri səviyyəsində qurur. 2015-ci ildən bu ali təhsil ocağına rəhbərlik edən Fuad Hacıyevin rəhbərliyi altında akademiyada yenidənqurma və təhsilin keyfiyyətinin artırılması istiqamətində müvafiq işlər aparılır.***

Son illərdə akademiyanın maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmlənmiş, tədris, təlim-tərbiyə, nizam-intizam sahəsində mühüm irəliləyişlər əldə olunmuşdur. ADBTİA-da maddi-texniki təchizat sahəsində ən müasir texnologiyalardan istifadəyə üstünlük verilir. Tələbələr dərs və məşğələləri beynəlxalq standartlara uyğun auditoriya və laboratoriyalarda keçirlər. Müasir idman kompleksini xatırladan ali təhsil ocağında foye, iclas salonu, şahmat otağı, idman muzeyi, yeməkxana, kitabxana kompleksi, yüksək informasiya texnologiyalarına əsaslanan laboratoriya və tədris kabinələri, kompyüterlə təchiz olunmuş auditoriyalar fəaliyyət göstərir.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası özünün zəngin və qədim ənənələri ilə seçilən və ölkədə bədən tərbiyəsi və idman üzrə mütəxəssislər hazırlayan yeganə ali təhsil ocağıdır. Akademiyanın məzunları ali təhsilli bədən tərbiyəsi müəllimləri kimi özünün sağlam fiziki hazırlığı ilə yanaşı, fiziki tərbiyənin pedaqoji, psixoloji, fizioloji və tibbi aspektlərinə hərtərəfli yiyələnirlər.

Yarandığı gündən etibarən respublikamızı ixtisaslı kadrlarla təmin edən akademiya gənc nəslin fiziki cəhətdən sağlam böyüməsi üçün peşəkar müəllim-məşqçilər ordusunun hazırlanmasında misilsiz xidmət göstərmişdir. Sevindirici haldır ki, ölkəmizin bütün təhsil müəssisələrində, idman məktəbi və təşkilatlarında çalışan yüksək ixtisaslı kadrlar - bədən tərbiyəsi müəllimləri və müəllim-məşqçilər məhz idman akademiyasının məzunlarıdır. Bu təhsil ocağını bitirmiş 16 min nəfərdən çox mütəxəssis ordusu ölkəmizdə bədən tərbiyəsinin geniş təbliğ olunmasında, əhalinin kütləvi şəkildə idmana cəlb edilməsində, yüksək səviyyəli idmançıların yetişdirilməsində var qüvvəsini sərf ediblər.




## Peşəkar idman kadrları hazırlayan ali təhsil ocağı

İdman tariximizə nəzər sal-saq, görərik kk, bütün idman növlərinin inkişaf yolu müəyyən mərhələlərdən keçmişdir. Bu mərhələlər olduqca çoxcəhətlidir. Belə ki, müstəqillik illərinə qədər və müstəqillik illərindən başlayaraq bu günə qədər akademiyanın tələbə və məzunları bütün idman növləri sahəsində öz bacarıqlarını müxtəlif formalarda nümayiş etdiriblər. Azərbaycan Respublikası öz dövlət müstəqilliyini elan etdiyi vaxtdan keçən iyirmi yeddi il ərzində digər ali təhsil müəssisələri kimi, ADBTİA-da kadr hazırlığı sahəsindəki fəaliyyətini daha da genişləndirmiş, özünün strateji funksiya və prinsiplərinə, milli dövlətçiliyimiz və mənafeyimiz baxımından yanaşmışdır. ADBTİA yüksək ixtisaslı bədən tərbiyəsi müəllimləri üzrə kadrlar hazırlamaqla yanaşı, ölkəmizdə bədən tərbiyəsi və idmanın şöhrətini daha da yüksəldilməsi, respublika gənclərinin ictimai fəallığının artırılması, onların dünya miqyasında tanınmaları, bayrağımızın beynəlxalq yarışlarda dalğalandırılması üçün bütün mümkün olan imkanlardan istifadə edir. Bütün bunlar, əlbəttə, ADBTİA-nın rəhbərliyinin, professor-müəllim heyətinin gərgin əməyi sayəsində başa gəlir. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası təkcə idmançılar hazırlamır, eyni zamanda, burada yüksək ixtisaslı bədən tərbiyəsi mütəxəssisləri hazırlayan əsaslı tədqiqatlar aparılır, dərsliklər, dərs vəsaitləri və metodiki tövsiyələr işlənib hazırlanır. Bu idman ocağının professor-müəllim heyəti bədən tərbiyəsi və idmanın aktual problemlərinə həsr olunmuş müxtəlif mövzularda elmi işlər üzərində çalışırlar. Onlar idmanın ayrı-ayrı növləri üzrə respublikanın yığma komandalarına müntəzəm elmi-metodiki köməklik göstərirlər.

2017-ci il üçün təsdiq edilmiş təqvim planına əsasən akademiyada müəyyən işlər görülmüşdür. Təqvimdəki tədbirlərin yüksək səviyyədə təşkili və keçirilməsində akademiyanın idman işləri şöbəsinin və idman kafedralarının əməyini xüsusi qeyd etmək lazımdır. Akademiyanın idman işləri şöbəsi başda olmaqla, akademiyanın kafedralarının birgə səyi nəticəsində rəsmi respublika və beynəlxalq yarışlara hazırlıqla bağlı bütün istiqamətlərdə aparılan səmərəli fəaliyyət tələbələrin təlim-tərbiyəsinə, uğurlu nəticələrinə zəmin yaratmışdır.

ADBTİA həm də müxtəlif idman tədbirlərinin məkanıdır. Təsadüfi deyil ki, 2017-ci ilin may ayında burada ölkəmizin ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunlarının qalib və mükafatçıları olan tələbə idmançılarla görüş keçirilib. Akademiyanın tələbələri IV İslam Həmrəyliyi Oyunlarında 34 medal qazanıblar. Azərbaycan komandasının əldə etdiyi medallardan 27-si isə akademiyanın məzunlarının payına düşür.

Yarışlarda iştirak edən 28 (21 oğlan, 7 qız) tələbəmizin qazandığı 34 medaldan 19-u qızıl, 7-si gümüş, 8-i isə bürüncdür. Qalib və mükafatçı tələbələrlə görüş zamanı ADBTİA-nın rektoru Fuad Hacıyev onları qələbə münasibəti ilə təbrik edərək deyib: "Bu il ölkəmiz idman sahəsində növbəti böyük uğura imza atdı. Azərbaycan milli komandası 50-dən çox müsəlman ölkəsindən üç mindən çox idmançının iştirak etdiyi IV İslam Həmrəyliyi Oyunlarında parlaq qələbə qazandı. Azərbaycan Oyunlarda 75 qızıl, 50 gümüş, 37 bürünc medal qazanaraq komanda hesabında birinci yeri tutdu. Bu uğurda akademiyanın tələbələrinin və məzunlarının da öz payı var. Sizin uğurunuz bizim uğurumuzdur. Bu gün sevinc hissi ilə deyə bilərik ki, sizin hər biriniz ölkəmizi layiqincə təmsil etdiniz. Biz sizin qələbələrinizlə fəxr edirik. Sizin uğurlarınız digər idmançılarımız üçün də yeni zirvələri fəth etmək baxımından çox yaxşı stimuldur". Tədbirdə medal qazanan tələbələr fəxri fərman və xatirə hədiyyələri ilə təltif olundular.



## Gənclərimiz vətənpərvər ruhda tərbiyə olunurlar

Ötən il akademiya tələbələri yığmanın heyətində 7 müxtəlif beynəlxalq yarışda qüvvələrini sınayıblar. Tələbələrimiz Olimpiya və qeyri-Olimpiya idman növləri üzrə rəsmi beynəlxalq yarışlarda ümumilikdə, 76 medal (44 qızıl, 16 gümüş, 16 bürünc) qazanıblar. Bu müddət ərzində 95 nəfər idman ustası, 136 nəfər isə idman ustalığına namizəd adını alıb. Ötən il müxtəlif idman növləri üzrə yığma komandaların heyətində 76 nəfər idmançı təlim-məşq toplanışlarında iştirak edib.

Azərbaycan xalqının milli suverenliyinin təmin edildiyi vaxtdan indiyədək keçdiyimiz ağrılı-acılı yolda Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbələrinin vətənpərvərlik təşəbbüsünü təqdirəlayiq hesab etmək olar. Akademiyada təlim-tədris işləri ilə paralel şəkildə aparılan ictimai-faydalı işlər nəticə etibarilə tələbələrdə zəhmətsevərlik, vətənpərvərlik və həyatda öz yerini tutmaq kimi keyfiyyətlər tərbiyə edir. Bu istiqamətdə ötən tədris ilində akademiyada "Aprel döyüşləri"nə həsr olunmuş atıcılıq yarışı keçirilib. ATGTİ dəstəyi və ADBTİA TGT -nin təşkilatçılığı ilə tələbələr arasında keçirilən yarışda 16 universitetin komandası iştirak edib. Hər komandada 4 nəfər yer alıb. Tədbirin açılış mərasimində bildirilib ki, 2016-cı ilin aprel ayında baş verən "Aprel döyüşləri" Azərbaycan ordusunun qüdrətini, müasir silahlardan istifadə bacarığını ortaya qoydu. Ordumuz, ümumən xalqımız böyük ruh yüksəkliyi, vətənpərvərlik nümayiş etdirdi. Ordumuz öz vəzifə borcunu həyata keçirməyə hər an hazır olduğunu bir daha sübuta yetirdi. Azərbaycan xalqının bu mövqeyi dünya ictimaiyyətinə də aydın oldu. Aprel döyüşləri Ermənistanın güclü ordusu olması və Azərbaycanın zaman keçdikcə torpaqlarını itirməsi ilə razılaşacağı barədə mifi puça çıxardı. O da bildirildi ki, müharibə zamanı ön cəbhə ilə arxa cəbhənin vəhdəti, xalqın öz xilaskarına maddi və mənəvi yardımı böyük qələbənin qazanılmasında mühüm rol oynayır. Bu, akademiyanın professor-müəllim heyəti və tələbələrimizin əsas işlərindən birinə çevrilib.

## Kütləvi yarışların təşkili ənənə halını alıb

Tələbələr arasında kütləvi yarışların keçirilməsi artıq ənənə halını alıb. Belə yarışlardan biri 2017-ci il aprelin 21-də Əl Oyunları İdman Sarayında keçirilib. Ali məktəb tələbələri arasında təşkil olunan XIII Respublika Universiadasında ölkənin ali təhsil ocaqlarının min nəfərdən artıq tələbəsi qüvvəsini sınayıb. Açılış mərasimində çıxış edən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, millət vəkili Səttar Mehbalıyev bildirib ki, ali məktəb tələbələrinin XIII Respublika Universiadası Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Gənclər və İdman nazirliyinin, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə qərarı ilə "Gənclik" Tələbə İdman Cəmiyyəti Respublika Şurası tərəfindən təşkil edilir. XIII Respublika Universiadasında ölkənin 23 ali təhsil müəssisəsinin tələbələri iştirak edir. Yarışlar idmanın 11 növü üzrə keçirilir və ümumilikdə min nəfərdən artıq tələbəni əhatə edəcək.

Universiadanın keçirilməsi ali təhsil müəssisələri arasında bədən tərbiyəsi və idmanı təbliğ edilməsi, idmanının kütləviliyinin artırılması, ali təhsil ocaqlarında idmançıların ustalıqlarının yüksəldilməsi, perspektivli idmançıların üzə çıxarılması, tələbə-gənclərin respublika və beynəlxalq səviyyəli yarışlara hazırlanması, onların vətənə, xalqa məhəbbət, dövlətçilik ideyalarına sədaqət ruhunda tərbiyə olunmasına xidmət edir. Universiadanın qalibi olan tələbələr Tayvanın paytaxtı Taypeydə keçirilən XXIX Ümumdünya Yay Universiadasında iştirak etmək hüququ əldə etdilər. Qaliblər ötən ilin may ayında "Təhsil" Respublika İdman Mərkəzində mükafatlandırıldılar.

XIII Respublika Universiadasının nəticələrinə görə, I yeri Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbələri tutdular. II yerə Azərbaycan Texniki Universiteti, III yerə isə Dövlət İqtisad Universiteti layiq görüldü. İdman növləri üzrə qalib komandalar kubok və diplomlarla təltif olundu. Universiadanın proqramına 11 idman növü: dama, cüdo, sərbəst güləş,yunan- roma güləşi,şahmat,voleybol( oğlanlar və qızlar), stolüstü tennis ( oğlanlar və qızlar) ,basketbol , badminton (oğlanlar və qızlar), veloidman və atletika idman növləri daxil edilmişdi. Bu yarışlarda 24 ali təhsil müəssisəsindən 1028 nəfər tələbə yarışırdı.

Akademiyada hər il erməni faşizminin törətdiyi və yüzlərlə insanın qətlinə səbəb olmuş Xocalı faciəsinin qurbanları ehtiramla yad edilir. Ötən belə tədbir fevralın 24-də keçirildi. Qan yaddaşımızda dərin və kədərli iz buraxan Xocalı faciəsinin 25 illiyinə həsr olunmuş tədbirdə akademiyanın Yaradıcılıq Birliyinin üzvləri fəal iştirak ediblər. Onlar Xocalı dəhşətini özündə əks etdirən şeirlər söyləmiş və birgə "İgid əsgər, möhkəm dayan!" mahnısını ifa etmişlər. Bundan başqa fevralın 20-23-də ADBTİA-nın əməkdaşları arasında Xocalı Soyqırımı qurbanlarının 25 illik xatirəsinə həsr olunmuş "Sərrast atıcı" yarışları təşkil olunub.

## Akademiyanın əməkdaşları seminarlarda fəal iştirak edirlər

Akademiyanın əməkdaşları mütamadi olaraq xarici ölkələrdə təşkil edilən seminar, simpozium, məşqçilik lisenziyalı kurslarda iştirak edirlər. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 8 nəfərdən ibarət professor-müəllim heyətinin tərkibində "İdmanın oyun növləri" kafedrasının müdiri dosent İlqar Əliyev və kafedranın baş müəllimi Əli Muradov Türkiyə Respublikasının Ankara şəhərində Hacəttəpə Univeristeti ilə əməkdaşlıq çərçivəsində "İdman hərəkatında cari və ənənəvi məsələlərə həsr olunmuş" seminarda iştirak edərək sertifikata sahib olublar. İdmanin təkmübarizlik növləri kafedrasında çalışan əməkdaşlarından 16 müəllim 2016-2017-ci tədris ilində Azərbaycan və xarici ölkələrdə seminar, simpozium, məşqçilik lisenziya kurslarında iştirak ediblər.

Kütləvi-sağlamlıq idman növləri kafedrasının əməkdaşlarının Rəşad Əbdürəhmanov su idman növləri üzrə beynəlxalq məşqçilik seminarında, Azər Babayev beynəlxalq hakimlik seminarına qoşulublar. Bundan başqa, kafedranın baş müəllimi, beynəlxalq kateqoriyalı lektor Nemət Heydərov milli hakimlərin IV İslam Oyunlarına hazırlıqla bağlı seminarlara rəhbərlik edib. Musa Aşirov, Əli Ələkbərov, Əli İbrahimov, Sadıq Sadıqov, Rəhim Xəlilov, Xasan Xasanov, Balaqardaş Məcidov Balaqardaş, Qılınc Əhmədov, Cəfər Cəfərov həmin seminarlarda iştirak etməklə beynəlxalq hakimlik sertifikatını əldə ediblər.

Akademiyada idman infrastrukturunun yaradılması da xüsusi diqqət mərkəzindədir. Hazırda ADBTİA-da güləş, atıcılıq, ağır atletika, həndbol, boks, basketbol zalları, voleybol, gimnastika zalları, şahmat otağı, üstü açıq üzgüçülük hovuzu və 1500 tamaşaçı tutan stadion fəaliyyət göstərir. Xalqımız öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan idmanının qarşısında da geniş imkanlar açılmışdır. Görülmüş məqsədyönlü tədbirlər nəticəsində Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbə və məzunları yay Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında müstəqil Azərbaycanın bayrağını yüksəklərə qaldıraraq, onun beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə layiqli töhfələrini vermiş və öz uğurlarını artırmaqdadırlar. Bu nailiyyətlərin əldə edilməsində akademiyanın tələbə məzunlarının xidmətləri danılmazdır.

Bu yazını yazmaqda məqsədimiz ADBTİA-nın Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında iştirak etmiş tələbə və məzunlarının idman nailiyyətlərini geniş ictimaiyyətə çatdırmaq, onların fəaliyyətini təhlil etmək, habelə, idmanının inkişafı üçün səyləri bundan sonra da artırmaq, çempionlarımızın sayəsində uşaq və gənclərin idmana marağının artırılmasına şərait yaratmaqdır.

***Dilqəm Quliyev***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

